

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (23.617)

26 noyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də xalqa müraciət edib. Dövlətimizin başçısı Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib. Bildirib ki, Kəlbəcər rayonunun işğal altına düşməsi böyük faciə idi. 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarından sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Prezident İlham Əliyev müraciətdə deyib ki, Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi.

Ölkəmizin başçısı vurğulayıb ki, Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir.

Azərbaycan Respublikasının Prezidenti xalqa müraciətinin sonunda deyib: "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!"

# Əhalinin sağlamlığı üzrə ardıcıl tədbirlər həyata keçirilir



***Son illər muxtar respublikada həyata keçirilən kompleks tədbirlər nəticəsində əldə olunmuş iqtisadi nailiyyət bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına da əsaslı təkan verib.***

Muxtar respublikada səhiyyə obyektlərinin infrastruktur təminatının yenilənməsi, xəstəxanalarda müasir tibbi avadanlıqların quraşdırılması əhalinin sağlamlığının qorunmasına geniş imkanlar yaradıb. Belə ki, təkcə 2010-cu ildən 1 yanvar 2020-ci il tarixədək Naxçıvan Muxtar Respublika Xəstəxanası, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzi xəstəxanaları olmaqla, ümumilikdə, 13 xəstəxana, 46 həkim ambulatoriyası, 58 feldşer-mama məntəqəsi və digər səhiyyə obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Həyata keçirilən tədbirlərin davamlılığının qorunması məqsədilə cari ilin yanvar-sentyabr aylarında Ordubad rayonunun Vənənd, Şərur rayonunun Məmmədsabir, Culfa rayonunun Camaldın kəndlərində həkim ambulatoriyası binalarının, Şərur rayonunun Muğancıq-Mehrab və Babək rayonunun Nəcəfəlidizə kəndlərində feldşer-mama məntəqələrinin tikintisi başa çatdırılmış, Ordubad Rayon Uşaq Xəstəxanası binasının yenidən qurulması, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic, Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyası binalarının tikintisi davam etdirilmişdir. Bundan əlavə, Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzində inzibati binanın tikintisi davam etdirilmişdir.

Səhiyyə sistemində kadr potensialının yaxşılaşdırılması istiqamətində Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisaslı tibb kadrlarının hazırlanması davam etdirilir. Bununla yanaşı, bu sahədə çalışanların bilik və təcrübələrinin artırılması məqsədilə çoxsaylı seminarların, konfransların keçirilməsi və tibb işçilərinin kurslara göndərilməsi təcrübəli kadrların formalaşmasına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 25 yanvar tarixli Sərəncamı ilə Şərur rayonunda, 2019-cu il 5 iyul tarixli Sərəncamı ilə Kəngərli rayonunda, 2019-cu il 31 oktyabr tarixli Sərəncamı ilə Şahbuz rayonunda, 2019-cu il 10 dekabr tarixli Sərəncamı ilə Ordubad rayonunda, 2019-cu il 24 dekabr tarixli Sərəncamı ilə Babək rayonunda və 2020-ci il 16 yanvar tarixli Sərəncamı ilə Culfa rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır.

Bundan əlavə, 2020-ci ildən etibarən icbari tibbi sığorta sisteminin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində tətbiqinə imkan verəcək hazırlıq işlərinin görülməsi, tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə



bağlı tədbirlər haqqında" 2019-cu il 18 mart tarixli Fərman imzalamışdır.

Naxçıvan şəhərində və muxtar respublikada icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il 26 dekabr tarixdə Sərəncam imzalanmışdır.

İnsanların sağlamlığının qorunmasında keyfiyyətli ərzaq məhsulları ilə yanaşı, içməli su təminatı da mühüm rol oynayır. Su ilə yayıla bilən xəstəliklərin azaldılması və su mənbələrinin təmizlənməsi inkişaf edən ölkələrdə əhəmiyyətli sağlamlıq tədbiridir.

Bu istiqamətdə muxtar respublikada yeni kaptajlar tikilmiş və içməli su xətləri çəkilmiş, mövcud kaptajlar və içməli su xətləri bərpa olunmuşdur. Ötən dövrdə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Hacıniyyət və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci və ikinci mərhələsi başa çatdırılmış, Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərin içməli su və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində cari ilin ötən dövründə Şərur rayonunda Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin, Cəlilkənddə içməli su şəbəkəsinin tikintisi başa çatdırılmış, Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində, ətraf qəsəbə və kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Şərur rayonunun Sərxanlı, Kəngərli rayonunun Qarabağlar, Yurdçu və Qabıllı kəndlərində içməli su şəbəkələrinin tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Şərur rayonunun Dəmirçi kəndində içməli su xəttinin çəkilişi başa çatdırılmış, Babək rayonunun Sirab, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində içməli su xətlərinin çəkilişi davam etdirilmişdir.

Ekoloji sabitliyin təmin olunması və ətraf mühitin qorunması əhali sağlamlığını şərtləndirən əsas amillərdən biridir. Muxtar respublikada geniş vüsət almış yaşıllaşdırma tədbirlərinin nəticəsi olaraq təkcə 2010-cu ildən 1 yanvar 2020-ci il tarixədək muxtar respublikada 5403 hektardan çox sahədə meşəsalma və meşəbərpa işləri aparılmışdır.

Cari ilin yaz əkini dövründə 282 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 207 minə yaxın ağac və gül kolu əkilmişdir.

Əhalinin sağlamlığının qorunması üzrə həyata keçirilən mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına da ciddi təkan vermişdir. Belə ki, 2010-cu ildə muxtar respublikada doğulanda gözlənilən ömür uzunluğu 75,1 yaş, o cümlədən kişilərdə 73,2, qadınlarda isə 76,9 yaş təşkil edirdisə, 2019-cu ildə bu göstərici 78,7, o cümlədən kişilərdə 76,6, qadınlarda isə 80,7 yaş səviyyəsində olmuşdur.

Səhiyyə sahəsində görülən kompleks işlərin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir: ***"Əhalinin sayının artması muxtar respublikada səhiyyə sahəsində həyata keçirilən tədbirlərin daha əhatəli və səmərəli təşkilini şərtləndirir. Ona görə də insanların sağlamlığının keşiyində durmaq, onların sağlamlığını qorumaq bundan sonra da sosial sahədə həyata keçirilən tədbirlərin əsasını təşkil etməlidir".***

Bütün sahələrdə qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlər əhalinin sağlamlığına və sosial müdafiəsinin gücləndirilməsinə yeni imkanlar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Dövlət Texniki Kollecində "Təhsildə innovasiya: STEAM təhsil metodu və onun əhəmiyyəti" mövzusunda tədbir keçirilib.***

# Təhsildə innovasiya: STEAM təhsil metodu və onun əhəmiyyəti



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı yüksəkixtisaslı kadr hazırlığı ilə yanaşı, innovasiyaların yaradılması istiqamətində də yeni vəzifələr müəyyənləşdirib. Sərəncam təhsilin inkişafında yeni mərhələnin əsasını qoyub, təhsil müəssisələrində yaradıcı düşüncənin və inkişafa xidmət edən layihələrin hazırlanmasına və tətbiqinə geniş imkanlar açıb. Bunun nəticəsidir ki, muxtar respublikada təhsilin inkişafı, innovativ təhsil üsullarının tətbiqi istiqamətində "İnnovativ dərnəklər", "Sabahın tədqiqatçıları", "Sabahın müəllimi", "İnteraktiv dərs", "Nümunəvi dərs", "Distant təhsil" layihələri tətbiq edilir.

Təhsil naziri diqqətə çatdırıb ki, 2020-2021-ci tədris ilindən etibarən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təlim metodunun tətbiqinə başlanılıb. STEAM şagirdlərə beş sahənin – elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulan təhsildir. STEAM təlimlərində şagirdlərə robotexnika, 3D modelləşdirmə və çap, proqramlaşdırma, nano və neyrotexnologiyalar, mühəndislik və dizaynerlik bacarıqları öyrədiləcəkdir.

Rəhman Məmmədov muxtar respublikanın təhsil müəssisələrində STEAM təhsil metodunun tətbiqi üçün yaratdığı əlverişli şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Təhsil Nazirliyi Aparatının şöbə müdiri Abdulla Əsgərov, Şərur Rayon Təhsil Şöbəsinin müdiri Kamil Məmmədov və Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzinin Robotexnika və STEAM dərnəyinin rəhbəri Türkanə Hüseynova muxtar respublikamızda təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafından, STEAM-ın təhsilin yeni təhsil fenomeni kimi məktəblərdə və məktəbdənkənar təhsil müəssisələrində tətbiqinin əhəmiyyətindən danışıblar.

Sonra STEAM təhsil metodunun muxtar respublikada tətbiqinin slayd vasitəsilə təqdimatı olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Ordumuzun zəfər gücü

## Bu güc hərb tarixinə qızıl hərflərlə yazılacaq (I yazı)

***2020-ci il sentyabrın 27-dən erməni hərbi birləşmələrinin növbəti təxribatı nəticəsində başlayan aktiv döyüş əməliyyatları bu dəfə ordumuzun sərt cavab tədbirləri ilə bütün cəbhəboyu əraziləri əhatə etdi. Bu eskalasiyanın müddəti 44 gün çəkdi. Həmin vaxt ərzində Azərbaycan Silahlı Qüvvələri 300-ə qədər yaşayış məntəqəsi və strateji yüksəklikləri azad edərək o bölgələrdə nəzarəti tamamilə ələ aldı. Noyabrın 8-də Azərbaycan üçün tarixi, mədəni, mənəvi və strateji dəyəri olan Şuşanın alınması və növbəti gün 70-dən çox yaşayış məntəqəsi və bir sıra yüksəkliklərin azad edilməsi isə Ermənistan hərbi-siyasi rəhbərliyini şok vəziyyətinə salaraq kapitulyasiya imzalamağa məcbur etdi. Bəs II Qarabağ müharibəsi hərbi-taktiki baxımdan Azərbaycan Ordusunun gücünü necə xarakterizə edir? Doğrudur, bu müharibə hələlik bitməyib, aktiv döyüş əməliyyatları dayandırılıb və məlum Bəyanatın şərtlərinin tam yerinə yetirilməsinədək münaqişənin siyasi mərhələsinə start verilib. Lakin müharibə tərəflərinin hərbi gücü ötən 44 gün ərzində bütün dünyaya məlum oldu.***



Hər şeydən əvvəl, tərəflər arasındakı hərbi qarşıdurma dünyanın əsas diqqət mərkəzində olmaqla yanaşı, təkcə siyasi institutlar tərəfindən deyil, həm də hərbi texnoloqlar və mütəxəssislər tərəfindən ciddi təhlil edildi, bununla bağlı müəyyən açıqlamalar verildi, analitik yazılar dərc olundu. Aydındır ki, istənilən müharibənin başlanması və yekunu siyasi qərarlardan asılı olsa da, bu cür qərarların verilməsində ən böyük rolu hərbi amil oynayır. Necə deyərlər, hərbi güc sülh üçün əsas meyardır. Azərbaycan da öz hərbi gücünə arxalanaraq özünün beynəlxalq hüquqla təsbit olunan ərazi bütövlüyünü təmin etmək üçün imkanlarından istifadə





etdi, eyni zamanda XXI əsrin döyüş bacarıqlarını ortaya qoymaqla müasir dünyaya necə döyüşməyin nümunəsini göstərdi. Ötən müddət ərzində Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin yüzlərlə tank, piyada döyüş maşınları, minaatan, müxtəlif çaplı artilleriya qurğuları, onlarla zenit-raket kompleksləri, radioelektron mübarizə vasitələri sıradan çıxarıldı, çoxsaylı hərbi texnikaları qənimət kimi ələ keçirildi. Düşmənin canlı qüvvə sarıdan itkiləri isə minlərlədir. Həm yerli, həm də əcnəbi mütəxəssislərin gəldiyi yekun rəy ondan ibarətdir ki, Azərbaycan Ordusunun qısa müddət ərzində bu nəticələri əldə etməsi çox böyük uğurdur.

Əlbəttə ki, bütün bunlar ötən müddətdə Azərbaycan Prezidentinin ordu quruculuğuna göstərdiyi böyük diqqətin nəticəsində mümkün olub. Nəzərə alaq ki, ölkəmizin hərbi inventarının komplektləşdirilməsinə bir neçə, o cümlədən dünyanın aparıcı hərbi şirkətlərinin məhsullarının daxil edilməsi mühüm amil idi. Dövlət başçısının da dediyi kimi, indi elə bir ölkə tapmaq mümkün deyil ki, ordusunda yalnız bir ölkənin hərbi məhsulları olsun. Ancaq bunu xüsusi ilə qeyd etməliyik ki, Azərbaycan digər ölkələrlə silah ticarətində yüksək texnologiyalara əsaslanan vasitələrə daha çox üstünlük vermişdi. Hətta həmin ölkələr bəzi hallarda bu cür silahların kütləvi satışını da hələlik tam reallaşdırmayıblar. Bu isə o deməkdir ki, Azərbaycan təkcə maliyyə imkanları ilə deyil, həm də tərəfdaşlıq etdiyi ölkələrlə nüfuzlu və etibarlı partnyordur. Eyni zamanda 2005-ci ildən başlayaraq ölkəmizdə müdafiə sənayesinin inkişaf etdirilməsi aktiv döyüşlərdə istifadə olunan silah-sursatın istehsalı və yenilənməsi işinə öz töhfəsini verib. Mətbuata da açıq olan məlumatlardan bəllidir ki, Azərbaycan Ordusunun arsenalındakı bir sıra hərbi texnikalar (ən çox tank və PDM-lər) modernləşdirilərək xidmətə cəlb edilib və ya milli adlarımızla istehsal olunan snayper, pilotsuz uçuş aparatları, müxtəlif əməliyyatların yerinə yetirilməsində rol oynayan zirehli döyüş maşınları hərbi inventara daxil edilib.

Müharibənin getdiyi dövrdə Azərbaycan Silahlı Qüvvələri cəbhədə azğın düşmənə qarşı yeni müharibə taktikası tətbiq etdi. V nəsil texnologiyalardan istifadə olunmaqla tətbiq edilən bu cür əməliyyatlar istər quru, istərsə də hava hədəflərinə qarşı digər alternativlərindən mükəmməl nəticələri ilə fərqlənir. Xüsusilə pilotsuz uçuş aparatları həm kəşfiyyat, həm dəqiq zərbə endirmək, həm də kamikadze xüsusiyyətləri ilə düşmən obyektlərini sərrast atəşlə məhv etdi. Bu dövrdə fərqli hədəfləri – zenit-artilleriya qüvvələrini, hava hücumundan müdafiə sistemlərini, radioelektron mübarizə vasitələrini, həmçinin onlarla adda hərəkət edən və etməyən hərbi obyektləri yüksək dəqiqliklə məhv edən pilotsuz uçuş aparatları artıq qısa müddətdə bütün dünyanın diqqət mərkəzinə çevrildi. Maraqlı məqamlardan biri də odur ki, əgər qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələri bu texniki vasitələrdən indiyədək terrorizmə qarşı müxtəlif əməliyyatlarda istifadə etmişdirsə, Azərbaycan həmin texnologiyalardan dünyada ilk dəfə olaraq genişhəcmli müharibədə – həm dağlıq, həm də düzəngah ərazilərdə istifadə etdi. Burada mütəxəssislərin diqqət yetirdiyi əsas məsələlərdən biri də odur ki, Azərbaycan Ordusu istifadə etdiyi robot texnologiyası sayəsində düşmənin mülki obyektlərinə və vətəndaşlarına zərər vermədən, yalnız hərbi hədəf atışları həyata keçirməklə ədalətli müharibə apardı və böyük üstünlük qazandı.

Silahlı Qüvvələrimizin arsenalında pilotsuz uçuş aparatları ilə bərabər, digər yüksək dəqiqlikli silahlar da cəbhədə öz sözünü dedi. Müharibənin ilk ongünlüyündə düşmənin cəbhəboyu ərazilərdə 30 ildən bəri qurduğu güclü müdafiə xəttinin darmadağın edilməsi ermənilər və onların havadarlarını, sözün həqiqi mənasında, yasa qərq etdi. Heç bir zirehli texnikanın hərəkətinə imkan verməyən, yer və hava müdafiə vasitələri ilə möhkəmləndirilmiş bu cür etibarlı sədlər ordumuzun müqaviməti sayəsində çox qısa müddətdə dağıdıldı. Cəbhə boyunca çox sayda hərbi texnika və canlı qüvvəsini itirən düşmən bu dəfə ölkəsinin hava hücumundan müdafiə sistemində xidmət aparan "S-300" zenit-raket komplekslərini döyüş zonasına gətirməyə məcbur oldu. Bu hərəkətliliyi müşahidə edən Azərbaycan tərəfi düşmənə xəbərdarlıq etsə də, onlar bundan çəkinmədilər və son nəticə ondan ibarət oldu ki, Silahlı Qüvvələrimizin müvafiq bölmələri həmin komplekslərin 8-ni darmadağın etdi.

Bu müharibədə Azərbaycan Ordusu göstərdi ki, müasir savaşlarda zirehli texnikalar əvvəlki rolu oynaya bilmir və onlar istənilən halda düşmən üçün əsl hədəfdir. Hətta bir çox hallarda hava hücumundan müdafiə sistemləri də Azərbaycanın istifadə etdiyi pilotsuz uçuş aparatlarının qarşısında acizdir. Bu cür uçuş vasitələri məxsus olduğu tərəfdə şəxsi heyətin daha az itki ilə mübarizə aparmasını təmin edir, vertikal izləmə imkanına malik olduğundan digər atıcı silahlarla müqayisədə düşmən tərəfdən də mülki əhalinin qorunmasına öz töhfəsini verir. Digər tərəfdən Azərbaycanın robot texnologiyaları sayəsində məhv etdiyi hərbi texnikalar məxsus olduğu ölkə(lər)nin hərbi nüfuzuna ciddi təsir göstərdi. Hansı ki artıq mütəxəssislər indidən bu nüfuzu bərpa etməyin yollarını axtarırlar.

Təbii ki, bu günədək əldə olunmuş nailiyyətlər Azərbaycan əsgərinin gücünə, onun döyüş hazırlığına, Ali Baş Komandan-xalq-ordu birliyinə əsaslanır. Əgər Azərbaycan əsgəri hərtərəfli döyüş hazırlığına, yüksək vətənpərvərlik ruhuna malik olmasaydı, o zaman əlimizdəki müasir silahların da bir dəyəri olmayacaqdı. Ölkə başçısı da Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanında səsləndirərkən bunu bir daha qeyd etdi: ***"Biz torpaqlarımızı xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına işğalçılardan azad edirik…"***

Dünyanın bir çox hərbi ekspertləri, eləcə də düşmən Azərbaycanın qələbələrində əsas rolu müasir silahların və pilotsuz uçuş aparatlarının oynadığını qeyd edirdilər. Ancaq Şuşa uğrunda gedən döyüşlər dünyaya digər bir reallığı da nümayiş etdirdi. Qafqazın ən uca zirvələrindən birində yerləşən Şuşa şəhərində mövqeyini möhkəmləndirən düşmən Azərbaycan əsgərinin nəyə qadir olduğunu öz gözləri ilə gördü. Ukraynalı hərbi ekspert Aleksey Arestoviç ordumuzun Şuşanı işğaldan azadetmə əməliyyatını belə şərh etmişdir: "Azərbaycan Şuşanı azad etdi. Piyada döyüşləri ilə, sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. PUA-sız, tanksız, artilleriyasız şəhəri aldılar". Rusiya mediası isə həmin döyüşləri belə təsvir edirdi: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir?! Azərbaycan Ordusu dağyuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı. Nə yaralını, nə öləni əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar..."

Beləliklə, Azərbaycan II Qarabağ müharibəsində bütün dünyaya göstərdi ki, XXI əsr müharibəsi qorxmaz, cəsur əsgərlərlə və "ağıllı" silahlarla aparılır. Bu cür silahlardan istifadə zamanı böyük məhvetmə qabiliyyəti olan raket komplekslərini uşaq bağçalarının yanında, şəhər parklarında gizlədən düşmənin də mülki əhalisini təhlükələrdən qorumaq (vertikal hədəf atışı sayəsində) mümkündür. Hansı ki ordumuz bunu etdi. Silahlı Qüvvələrimiz sübut etdi ki, gücləndirilmiş zireh təbəqəsinə malik ənənəvi texnikalar da, müdafiə xəttində mühafizə örtüyü dəfələrlə artırılmış klassik istehkamlar da əvvəlki kimi vacib yox, lazımi əhəmiyyət daşıyır. Digər tərəfdən bu döyüşlər hava hücumundan müdafiə və radioelektron mübarizə sistemlərinin "ağıllı" radar texnologiyaları üzərində qurulması zərurətini ortaya qoydu ki, bu da bir çox ölkələr üçün ciddi siqnal oldu.

Nəhayət, bütün dünya gördü ki, güclü silah, yalnız hərtərəfli hazırlığa və döyüş ruhuna malik əsgər əlində olduqda effektlidir. Sonda bir şeyi də unutmayaq ki, bir ay bundan əvvəl Dağlıq Qarabağ bölgəsi və işğal altında qalmış digər ərazilərimiz dünyanın ən çox silahlandırılmış münaqişə ocaqlarından sayılırdı. 44 gün ərzində 3 milyard dollar dəyərində silah-sursatın məhv edilməsi və ələ keçirilməsindən əlavə, yerlərdə olan hərbi texnikaların və zərərsizləşdirilməmiş minaların (bunların sayı sonra bəlli olacaq) sayını da bura əlavə etsək, mənzərə tamamilə aydın olar. Yəqin ki, hər kvadratmetrinə düşən silah-sursat sayına görə dünyada başqa belə bir bölgə tapmaq mümkün deyil. Bunu da, yəqin bilirik ki, Azərbaycanın II Qarabağ müharibəsində istifadə etdiyi və hələlik analiz prosesində olan bir çox uğurlu taktiki əməliyyatları dünya hərb tarixinin səhifələrinə qızıl hərflərlə yazılacaq, uzun müddət müzakirə mövzusu olacaq, dünya ordularında tətbiq ediləcək.

**Səbuhi HƏSƏNOV**

# Bələdiyyə torpaqlarından səmərəli istifadə edilməlidir

Ölkə həyatının bütün sahələrində mütərəqqi islahatların həyata keçirildiyi bir şəraitdə bələdiyyələr də öz fəaliyyətlərini təkmilləşdirir, qanunvericiliklə müəyyənləşdirilmiş gəlir mənbələrindən maksimum istifadə etməyə, maliyyə imkanlarını genişləndirməyə səy göstərir. Bu baxımdan bələdiyyə torpaqlarından yerli əhalinin ümumi mənafeyi üçün daha səmərəli istifadə edilməsi, xüsusilə əhəmiyyətlidir. Qeyd edək ki, ölkəmizdə bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı zəruri hüquqi baza yaradılıb. Adıçəkilən qurumun mülkiyyətində olan bütün torpaqlar qanunvericiliklə müəyyən edilmiş qaydada icarəyə verilə bilər. Belə ki, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət, xüsusi və bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edir. Həmin qanunun müddəaları torpaq icarəsi müqaviləsi əsasında, əvəzi ödənilməklə torpaqdan müddətli istifadə edilməsinə imkan verir.

Qeyd edək ki, torpaqların icarəyə verilməsi bir sıra şərtlərə əməl edilməsini ehtiva edir. Tərəflər arasında bağlanan müqaviləyə əsasən icarəyə verilən torpaqlardan təyinatı üzrə istifadə olunmalı, ekoloji tarazlıq gözlənilməli, ətraf mühitin mühafizəsinə diqqət göstərilməli və digər zəruri şərtlərə əməl edilməlidir. İcarə müqaviləsində tərəflərin hüquq və vəzifələri, torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, sərhədləri və təyinatı barədə məlumatlar, icarə müddəti, icarəhaqqı və digər məsələlər göstərilməlidir. Nəzərə almaq lazımdır ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununda göstərilir ki, kənd təsərrüfatı ehtiyacları üçün verilmiş və ya bu məqsədlər üçün nəzərdə tutulan torpaqlar bələdiyyənin kənd təsərrüfatı təyinatlı torpaqları sayılır. Bu kateqoriyalı torpaqlar yalnız kənd təsərrüfatı məhsullarının istehsalı üçün icarəyə verilir. İstifadəsində və ya icarəsində kənd təsərrüfatı təyinatlı bələdiyyə torpaqları olan hüquqi və fiziki şəxslər torpaqların münbitliyinin və digər faydalı xassələrinin qorunması üçün müvafiq tədbirlər görməyə borcludurlar.

Bu gün muxtar respublikamızda fəaliyyət göstərən bələdiyyələr öz torpağının sahibidir və həmin torpaqlardan gəlir götürmək, əkib-becərmək üçün dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb. Aqrar sahədə həyata keçirilən islahatlar da bunun ifadəsidir. Həmin islahatlar kənd təsərrüfatının inkişafına, kəndlinin həyat şəraitinin yaxşılaşmasına səbəb olub. Bu məqsədlə də muxtar respublikamıza müasir kənd təsərrüfatı texnikaları gətirilərək istifadəyə verilir. Geniş həcmdə meliorasiya-irriqasiya tədbirləri həyata keçirilir. Torpaq mülkiyyətçilərinə subsidiyalar ödənilir, onlar güzəştli kreditlərlə təmin olunurlar. Şahbuz rayonunda yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Bu gün muxtar respublikaya kənardan ərzaq gətirilmirsə, insanlar, hətta ölkəmizdəki vəziyyətlə əlaqədar öz istehsal etdikləri məhsuldan ordumuza kömək edirlərsə, bunların hamısı yaradılan şəraitin və zəhmətkeş insanların fədakarlığı nəticəsində mümkün olmuşdur. Hansı dövr və şəraitin olmasına baxmayaraq, kənd təsərrüfatı inkişaf etdirilməlidir, bu sahə daim dövlət qayğısı ilə əhatə olunmalıdır. Çünki kənd təsərrüfatının inkişafı ölkənin inkişafı deməkdir".***

Bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına və onların mühafizəsinə nəzarət etmək torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin səlahiyyətlərindən biri kimi müəyyənləşdirilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən də bələdiyyə torpaqlarının icarəyə verilməsi sahəsində yerli özünüidarəetmə orqanlarına metodik köməklik məqsədilə mütəmadi olaraq müvafiq sənədlərin nümunələri hazırlanaraq göndərilir, aidiyyəti dövlət orqanları ilə birgə maarifləndirmə tədbirləri həyata keçirilir. Ərzaq bolluğunun yaradılması üçün bələdiyyələrin mülkiyyətində olan torpaq sahələrinin istifadə vəziyyəti aidiyyəti orqanlarla birlikdə mütəmadi olaraq təhlil edilir. Eyni zamanda kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən bələdiyyə və yerli əhalinin mənafeyi naminə səmərəli istifadə olunması üçün yerlərdə monitorinqlər aparılır.

Bələdiyyə torpaqlarını icarəyə götürən hər bir şəxs müəyyən olunmuş qanunlara riayət etməyə borcludur.

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu***

## "Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı" və "Haqq divanı" kitablarının təqdimatı olub

***AMEA Naxçıvan Bölməsində Əməkdar elm xadimi, mərhum professor Hüseyn Həşimlinin "Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı" və "Haqq divanı" kitablarının təqdimatı olub.***

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, professor Hüseyn Həşimli gərgin elmi araşdırmaları, fədakar əməyi sayəsində Naxçıvan ədəbi mühitinin inkişaf yolları, bədii yaradıcılığın əsas istiqamətləri, mövzu rəngarəngliyi ilə bağlı mühüm məsələləri araşdırıb üzə çıxarmış, bu istiqamətdə arxivlərdən, yüz ildən artıq bir dövrün mətbuatından çoxsaylı və müxtəlif səpkili materiallar toplayıb, ədəbi nümunələr əsasında ədəbiyyatşünaslıq məsələlərini ciddi tədqiq etmiş alim kimi yaddaşlarda həmişəlik yaşayacaq. Bu baxımdan tanınmış professorun Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsi, demək olar ki, ədəbi irsi öyrənilməmiş Ələkbər Qərib Naxçıvanlının yaradıcılığı haqqında apardığı araşdırmalar, ortaya çıxardığı faktlar nadir tapıntılar sırasındadır.






İsmayıl Hacıyev qeyd edib ki, görkəmli alim Hüseyn Həşimli "Naxçıvanlı yazıçılar "Məktəb" jurnalında" monoqrafiyasında Naxçıvan ədəbi mühitinin bu tədqiq olunmamış nümayəndəsi haqqında daha geniş məlumat verib, Ələkbər Qərib Naxçıvanlının bədii irsindən bir neçə nümunəni, tərcüməçilik fəaliyyətini tədqiq edən məqalələri mətbuatda dərc etdirməyə müvəffəq olub. Tanınmış ədəbiyyatşünasın Ələkbər Qərib Naxçıvanlının həyat və yaradıcılığı, tərcüməçilik fəaliyyəti haqqında yazdığı, lakin sağlığında işıq üzü görməyən irihəcmli "Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı" monoqrafiyası və "Haqq divanı" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci ilin nəşr planına daxil edilib, dövlət qayğısı ilə işıq üzü görüb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, Ələkbər Qərib Naxçıvanlı 1910-1930-cu illərin ədəbi proseslərində yaxından iştirak edən, nəsr, publisistika, ədəbi tənqid və bədii tərcümə sahəsindəki səmərəli, məhsuldar fəaliyyəti ilə diqqətçəkən istedadlı, lakin unudulmuş, yaradıcılığı araşdırılmamış sənətkarlarımızdan biridir.

Qeyd olunub ki, professor Hüseyn Həşimli iyirmi beş ildən artıq müddətdə digər unudulmuş ədiblərlə yanaşı, Ələkbər Qərib Abbasovun da həyat və yaradıcılığının tədqiqi ilə məşğul olmuş, müasir dövr Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsi kimi öz elmi fəaliyyəti ilə Azərbaycan ədəbiyyatını dünyanın bir sıra ölkələrində təbliğ etmişdir. O, uzunmüddətli axtarışlarının nəticəsi olaraq yazıçının müxtəlif janrlı bir çox əsərlərini ilk dəfə üzə çıxararaq tədqiqata cəlb etmişdir. Yeni tədqiqat əsəri ciddi elmi axtarışların, böyük zəhmətin məhsulu olmaqla unudulmuş tarixi və ədəbi irsimizə ən layiqli töhfədir. Sağlığında Ələkbər Qərib Naxçıvanlı ilə bağlı mətbuatda onlarla məqaləsi çap olunan və onu elmi ictimaiyyətə təqdim edən Hüseyn Həşimlinin ən böyük arzusu ədibin haqqında monoqrafiyanın və əsərlərinin işıq üzü görməsi idi. Alim "Şərq qapısı" qəzetinin 12 oktyabr 2017-ci il tarixli sayında dərc olunan "Unudulmuş şairin sənət dünyası" adlı məqaləsində də yazıçının əsərlərini və onun haqqında monoqrafiyanı çapa hazırlaması barədə məlumat vermişdi.

Surə Seyid vurğulayıb ki, sağlığında bu arzusunu reallaşdıra bilməsə də, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə nəşr olunan bu iki kitab görkəmli alim Hüseyn Həşimlinin elmi axtarışlarının bəhrəsi olaraq həyata vəsiqə aldı. Naxçıvan ədəbi mühitinin tanınmış simalarından olan Ələkbər Qərib Naxçıvanlının şərəfli ömür yolu, bədii yaradıcılığı, ədəbi-tənqidi və publisistik irsi, tərcüməçilik, naşirlik fəaliyyətini elmi təhlil süzgəcindən keçirən görkəmli alimin bu tədqiqat əsəri XX əsr Naxçıvan ədəbi mühitinin tədqiqatçıları üçün də əvəzsiz bir tapıntıdır.

Bildirilib ki, kitabda Ələkbər Qərib Naxçıvanlının müxtəlif illərdə yazdığı bədii əsərləri, o cümlədən yeddi hekayəsi, bir povesti, səkkiz publisistik və ədəbi-tənqidi yazıları, görkəmli alim və tədqiqatçı Əziz Şərifə ünvanladığı məktubu, görkəmli rus yazıçısı N.M.Karamzindən etdiyi "Bədbəxt Liza" əsərinin tərcüməsi və əsərlərinə yazılmış iki resenziya toplanaraq geniş oxucu kütləsinə təqdim edilib. Monoqrafiyanın "Ön söz"ündə müəllif yazır: "Ələkbər Qərib Naxçıvanlının çoxşaxəli sənət yolunu, səmərəli və məhsuldar yaradıcılıq fəaliyyətinin ətraflı şəkildə tədqiqi, bütövlükdə, 1910-1930-cu illərin ədəbi prosesinin müxtəlif məqam və problemlərini, ədəbi-publisistik irsimizin bir sıra unudulmuş səhifələrini də aydınlaşdırmağa imkan verir".

Əminliklə qeyd etmək olar ki, "Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı" və "Haqq divanı" adlı yeni nəşrlər gənc alimlər və tədqiqatçılar üçün məxəz rolunu oynamaqla yeni əsərlərin yaranmasına, elmi baxışların formalaşmasına və yeni ədəbi düşüncələrin işıq üzü görməsinə səbəb olacaq.

Təqdimat mərasimində AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, institutun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyeva, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aygün Orucova çıxış edərək görkəmli ədəbiyyatşünas alim Hüseyn Həşimlinin, Naxçıvan ədəbi mühitinin tanınmış simalarından olan Ələkbər Qərib Naxçıvanlının həyat və yaradıcılığından, yeni işıq üzü görən tədqiqat əsərinin əhəmiyyətindən geniş söhbət açıblar.

AMEA-nın müxbir üzvü, professor Tofiq Əliyev görkəmli ədəbiyyatşünas alim Hüseyn Həşimlinin ailə üzvləri adından kitabların ərsəyə gəlməsində çəkilən zəhmətə, göstərilən yüksək qayğıya görə dövlətimizə, bu işdə əməyi olanlara minnətdarlıq edib.

Qeyd edək ki, elmi redaktoru və rəyçisi filologiya üzrə fəlsəfə doktoru Surə Seyid olan, 4 fəsildən ibarət "Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı" monoqrafiyasında görkəmli sənətkarın həyat və yaradıcılığı, tərcüməçilik fəaliyyəti geniş şəkildə təhlil olunub, "Haqq divanı" adlı kitab vasitəsilə Ələkbər Qərib Naxçıvanlının indiyə qədər elmi-ədəbi ictimaiyyətə məlum olmayan bədii-publisistik əsərləri oxuculara çatdırılır. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla işıq üzü görən hər iki nəşr gənc alimlər və tədqiqatçılar üçün fundamental baza rolunu oynayır.

✍ **Nail ƏSGƏROV**

## Naxçıvan öz qəhrəmanlarını izdihamla qarşıladı



Tarixboyu igidliyi, qəhrəmanlığı ilə tanınan naxçıvanlılar tarixin bütün dövrlərində rəşadət və cəsarəti ilə sözünü deyib. Əlincənin alınmazlığı, Babəkin qəhrəmanlığı, Naxçıvanskilərin, Kəngərlilərin döyüş ruhu həmişə dillərə dastan olub. Naxçıvanlılar ötən əsrin əvvəlində də bu cəsarəti və hünəri göstərib, mənfur düşməni yerində oturdub. Elə ötən əsrin sonlarında sərhəd bölgəmiz Sədərək də belə igidlərimiz hesabına qorundu. Həmin illərdə silahımız, sursatımız olmasa da, Vətən sevgimiz var idi, hansı ki bizə atalarımızdan ərməğan qalmışdı. Günlərlə ac-susuz səngərlərdə qalsaq da, yüzlərlə şəhid versək də, torpağımızı qoruduq. Bununla da, bitmiş bilmədi igidlərimiz öz borcunu. Azərbaycanımızın bağrında açılan Qarabağ yanğısına da dərman oldu igid oğullarımız. "Harada Azərbaycan bayrağı dalğalanırsa, ora Vətəndir", – deyib doğulduqları torpaqlardan yüzlərlə kilometr uzaqda olan Qarabağa üz tutdular.

Bu gün xalqımızın böyük zəfərində naxçıvanlıların göstərdikləri igidliklər dillərdə deyilir, Ali Baş Komandan tərəfindən təqdir olunur.

Vətən müharibəsində iştirak edən, döyüş tapşırıqlarını uğurla yerinə yetirən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları noyabrın 24-ü gecə saatlarında Naxçıvana qayıtdılar. Qəhrəmanlar alqışlarla, "Ən böyük əsgər, bizim əsgər!" şüarları ilə qarşılandı. Və həmin qayıdış toy-bayram oldu həm ailələri, həm də bütün naxçıvanlılar üçün. Diyarımızın hər yerindən onları qarşılamağa üz tutan insanların sevinci sonsuz idi.

Şərəfli döyüş yolu keçən qəhrəman Vətən oğullarını Sədərək gömrük-keçid məntəqəsindən etibarən yüzlərlə sakin izdihamlı şəkildə müşayiət edib, yolboyu Vətənimizin bütövlüyü, igidlərimizin şücaəti ilə bağlı şüarlar səsləndirilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

***İstehsal və xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılmasına, daha çox keyfiyyətli yerli məhsulların istehlakının təşviqinə xidmət edən müxtəlif nəzarət tədbirləri Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir.***

## Standartların tələbləri təmin edilir

Bu istiqamətdə həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilmiş, ay ərzində, ümumilikdə, məhsul nümunələrinin 347 halda, o cümlədən qida məhsullarının 337 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması prioritet vəzifə kimi diqqətdə saxlanılır. Bu məqsədlə hesabat ayı ərzində 29 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə sertifikatlaşdırma prosedurları və monitorinqlər üzrə, ümumilikdə, 140 halda texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu yoxlanılmış və nöqsan aşkar olunmamışdır.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvanda bu sahənin davamlı inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində bal məhsullarının 17 halda laboratoriya ekspertizası aparılmış, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Ailə təsərrüfatı modelinin dəstəklənməsi işi muxtar respublikada davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində oktyabr ayı ərzində, ümumilikdə, 3 ailə təsərrüfatına istehsal etdikləri məhsulların etiketlərinin hazırlanmasında müvafiq köməkliklər göstərilmişdir. Ötən ay Şahbuz, Babək, Ordubad, Culfa, Şərur, Kəngərli və Sədərək Rayon İcra hakimiyyətlərinin nümayəndələri ilə birlikdə yerlərdə meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğul olan ailə təsərrüfatları ilə görüşlər keçirilmiş, qurudulmuş və qablaşdırılmış məhsul istehsalının təşkili, onların düzgün etiketlənməsi istiqamətində maarifləndirici söhbətlər aparılmış, qurudulmuş meyvə və tərəvəz məhsullarından 42, ümumi məhsullardan 241 halda nümunələr götürülərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların və standartın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

İstehlakçıların ailə təsərrüfatı məhsulları haqqında rahat məlumat əldə edə bilməsi və ailə təsərrüfatı məhsullarının aktiv satışının təşviqi məqsədilə hazırlanmış "Kənddən al" mobil tətbiqinin məlumat bazasının aktuallaşdırılması istiqamətində birgə fəaliyyət davam etdirilmiş, yeni məlumatların yerləşdirilməsi üçün 6 ailə təsərrüfatının istehsal etdiyi məhsullar haqqında məlumatlar "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsinə təqdim olunmuşdur.

Oktyabr ayında ev şəraitində araq istehsalı ilə məşğul olan 1 ailə təsərrüfatında minifiltr qurğusunun quraşdırılması təmin edilmiş və müvafiq ailə təsərrüfatlarının sayı 34-ə çatmışdır. Ailə təsərrüfatları nümayəndələri ilə keçirilmiş görüşlərdə minifiltr qurğuları haqqında məlumat verilmiş, bunlara ehtiyacı olan ailə təsərrüfatlarının qeydiyyatı aparılmış və köməklik göstərilməsi məqsədilə yeni avadanlıqların gətirilməsi üçün sifariş verilmişdir.

Alkoqollu içkilərin standartlara uyğunluğu ciddi nəzarətdə saxlanılır. Bu istiqamətdə oktyabr ayı ərzində alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 9 halda, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Xidmət sektoru əhalinin hər gün istifadə etdiyi və keyfiyyət standartlarına həssas olan obyektlərdən olduğu üçün 14 ət satışı mağazasına, 66 ictimai iaşə və xidmət sahəsinə, 234 ərzaq və qeyri-ərzaq mağazasına maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Həmçinin metroloji norma və qaydalara uyğun olaraq 1090 ölçmə vasitəsi yoxlanılmışdır.

Xarici bazarlara çıxış imkanlarının artırılması, xüsusilə diqqət mərkəzindədir. İstehlak bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, ailə təsərrüfatları məhsullarının ixracına dəstək göstərilməsi istiqamətində təsərrüfat subyektləri ilə 20 halda informativ xidmət üzrə müqavilə bağlanaraq istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq beynəlxalq mühafizəsi üçün xidmətlər haqqında məlumatlar müəssisə rəhbərlərinin diqqətinə çatdırılmışdır. İxrac istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının yüksələn iqtisadi aktivliyi tərəfimizdən dəstəklənir. Belə ki, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilir.

Hesabat ayında payız-qış mövsümünə hazırlıq da diqqətdə saxlanılmışdır. 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasında keçirilmiş müşavirədə standartın tələblərinə cavab verməyən, sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz məişət cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısının alınması barədə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə hazırlanmış iş planına uyğun olaraq tədbirlər həyata keçirilmişdir. Belə ki, ümumilikdə, 2713 cihaza, o cümlədən 20 elektrik, 2693 qaz məişət cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 20 elektrik və 55 qaz məişət cihazının idxalına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

# “Qarabağ” dastanının “Kəlbəcər” boyu



KƏLBƏCƏR. *Bu qədim yurd yerimizin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qalacaqdır. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox tutarlı cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.*

### *Blitzkriq əməliyyatı ilə işğal olunan Kəlbəcər*

Blitzkriq alman sözüdür. Blitz (ildırım), krieg (müharibə) sözlərinin birləşməsindən yaranıb. Mənası sürətli qələbə qazanmaq üçün gərgin hərbi kampaniya, “şimşək müharibəsi”dir. Bu kampaniya XX əsrin əvvəllərində alman feldmarşalı Alfred fon Şliffen tərəfindən yaradılıb. Blitzkriq zirehli tanklar və hava dəstəyi də daxil olmaqla, hərəkətli, manevr gücləri istifadə edərək düşmənə sürətli, fokuslanmış bir zərbə vurmaq üçün hazırlanmış hücum müharibəsi metodunu təsvir etmək üçün istifadə olunan bir termindir. Belə bir hücum ideal olaraq əsgər və topçu itkisini məhdudlaşdıraraq sürətli bir qələbəyə səbəb olur. I Dünya müharibəsində almanlar blitzkriqi Polşa, Norveç, Belçika, Hollandiya, Fransaya, II Dünya müharibəsində isə Rusiyaya tətbiq etmiş və uğurlu nəticələr qazanmışlar. Maraqlıdır, bunu ermənilər Kəlbəcərə necə tətbiq etmişdilər? Sovetlər Birliyinin 15 müttəfiqindən biri Azərbaycan idisə, digəri də Ermənistan idi. Nəzərə alsaq ki, Azərbaycan Ermənistandan bütün dövrlərdə zəngin bir ölkə olub, 70 il sonra 1990-cı illərdə Azərbaycan iqtisadi cəhətdən o vəziyyətdə idisə, gör indi Ermənistan hansı vəziyyətdə imiş. Yox, unutduğum fərqli bir məsələ var: erməni yaltaqlığı, riyakarlığı. Həmin dövrdə Sovetlər Birliyi özünü yenidən dirçəltmək üçün ermənilərdən hərtərəfli istifadə edirdi. Elə blitzkriq əməliyyatı da ermənilərə havadarlıqlarının köməkliyinin növbəti mərhələsi idi. Faktlar da bunu təsdiq edir: Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya Ordusu) dağ qoşunları Kəlbəcəri blitzkriq əməliyyatı ilə ələ keçirdi. İlk ağır müqavimətdən sonra Azərbaycan qoşunları tezliklə dağıldı və rayon mərkəzi 1993-cü il aprelin 3-də işğal olundu.

Hadisələrə bu günün prizmasından yanaşdıqda ermənilərin Kəlbəcərdəki alman blitzkriq əməliyyatı ilə bağlı belə bir qənaətə gəlirəm ki, onlara bu əməliyyat yəqin ulu babaları Qaregin Ter-Artyunyanın (Nijde) uzun illər alman faşistlərinə köpək kimi xidmətindən ərməğandır. Maraqlıdır, Sovetlər Birliyinin tör-töküntüsü onları almanlara satan Nijdenin tör-töküntüsünə niyə bu dəstəyi verirdilər? Məqsəd hərzamankı kimi çox aydındır... 30 il əvvəlin fonunda aydın görünənlərdən biri də o oldu ki, Azərbaycan 30 ilə yaxın bir dövrdən sonra düşmənə blitzkriq əməliyyatından da güclü həmlələr etdi.

### *Kəlbəcərin sahibi gələcəkdi...*

Kəlbəcər 1993-cü ildə işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid, lakin əliyalın övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, amma düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı? Blitzkriq əməliyyatının qarşısında ov tüfəngi nə iş görə bilərdi? Heç nə. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minillərboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu, o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları erməni tapdağı altında qalacaqdı əbədiyyən. Bu, o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı. Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün. Ölkəmizin Prezidenti, Ali Baş Komandanımız, hər bir azərbaycanlının qürur yeri cənab İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu. İndi bütün dünya Azərbaycandan danışır, bizə heyranlıqla tamaşa edir, bizdən çox məqamları öyrənməyə çalışır.

### *Azərbaycanın gözmuncuğu, Qobustanın əkizi Kəlbəcər*

Nəinki Azərbaycanın, bütün Qafqazın gözmuncuğu, Qobustanın əkizidir Kəlbəcər. Ərazisinə və əhalisinin sayına görə Qarabağ və ətraf rayonların ən böyüyü olan bu yurd yeri təbii sərvətləri, gözəllikləri, dağlıq, qeyri-adi əraziləri, çayları, düzləri ilə bir füsunkarlıq abidəsidir, canlı təbiət muzeyidir. 30 min ildən çox tarixi olan yaşayış məskənləri, məscidləri, VI-VII əsrlərə aid Xudavəng məbəd kompleksi, XIII əsrə məxsus Arzu xatın məbədi, silsilə alban məbədləri, Hacı Əsəd, Hacı Əhməd, Ağ körpüləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri Kəlbəcərin qədimliyinin təsdiqidir. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə “Türk qəbiristanlığı” adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir. Kəlbəcərin səthi dağlıqdır, o, Murovdağ, Şahdağ və digər yüksəklikləri sinəsinə bənd edib, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinə qoyun açıbdır bu yurd yeri. Ən böyük çayımız Tərtər və onun iki böyük qolu, Bazarçayın da mənbəyi, ulu öndərin rəhbərliyi ilə tikilən Sərsəng Su Anbarı Kəlbəcərin ərazisindədir. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlarda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrinin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və sair Kəlbəcər faunasının zənginliyidir. Və qızıl yataqları... Söyüdlü-Zod qızıl mədəni tarixə uzun əsrlərdir, məlumdur. Zod qızıl yatağının istismarı eramızın III minilliyinə təsadüf edir. Söyüdlü sahəsində 1970-1980-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə “Şəhrizər”, yəni qızıl şəhəri adı ilə məşhur olub. Kəlbəcər, bütövlükdə, bu təbii sərvətləri, təbiəti, tarixi ilə Azərbaycanın gözmuncuğudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var”.***

### *Kəlbəcər bir çox məqamları təsdiqlədi*

Dilimizdə belə bir deyim var: “Dostu dar gündə tanıyarlar”. Lakin “Düşməni dar ayaqda tanıyarlar” deyimini eşitməmişdim. Sual oluna bilər ki, düşmən elə düşməndir də, onun nəyini tanımaq lazımdır ki? Bəli, düşmən düşməndir, lakin hər düşmənin də öz kökünə məxsus xisləti var. Sən demə, belə bir deyim var imiş, lakin biz bunu canlı olaraq görəcəkmişik. Bunu Kəlbəcərin ermənilər tərəfindən boşaldıldığı vaxt gördük. 27 il əvvəl işğal edərək xarabalığa çevirdikləri, bu xarabalıqlar arasında bəzi evlər saxlayıb, kəlbəcərlilərin zəhmətlə, nə kimi arzularla tikdikləri evlərinə sığınan ermənilər rayonu tərk edərkən həmin evləri, meşələri, həyətlərdəki ağacları yandırdıqları zaman gördük o deyimi. Bununla da, öz kimliklərini bir daha sübut etdilər. Sübut etdilər ki, düşmən olmaq bir ayrı məsələdir, xislətsiz, xaraktersiz olmaq bir başqa məsələdir. Göstərdilər, biz də gördük. Bizim xalqın nümayəndələri ermənilərin Gəncəyə atdıqları ballistik raket nəticəsində dağılmış evlərindən Azərbaycan bayrağını sinəsinə sıxıb çıxdıqları halda, ermənilərin nələri sinələrinə sıxıb Kəlbəcəri tərk etdiklərini də gördük. Evləri yandırmaqda məqsədləri nə idi bu bədbəxtlərin, görəsən? Düşünürdülər ki, kəlbəcərlilər qayıdıb onların murdar nəfəsləri çökmüş evlərdə yaşayacaqlar. Əsla. Əvvəllər bədxah qonşularımız azərbaycanlılara qonaq gələndə onun istifadə etdikləri qab-qacağı atarmışlar. Oturduqları döşəkçənin üzünü çıxarıb yuyub, salavatlayıb, sonra yenidən istifadə edərmişlər. İndi o evlərdəmi yaşayacaqdı kəlbəcərlilər? Yandırın, dağıdın və gözləyin, 3-5 ildən sonra o torpaqlarda yaradılanları seyr edəcəksiniz.

### *Kəlbəcərə həyat qayıdır...*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: ***“Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır”.***

*Bəli, biz Kəlbəcərə qayıdırıq. Ata-baba yurdumuza, əzəli torpaqlarımıza qayıdırıq. Bu xalq XXI əsrdə yazdığı qəhrəmanlıq dastanı ilə – “Qarabağ” dastanı ilə o torpaqlara qayıdır. Dövlət-xalq birliyi, lideri ilə, şücaəti, rəşadəti, şəhidləri, yaralı qaziləri, 27 illik yurd təşnəli insanları ilə erməni qəsbkarlarından geri aldığı torpaqlara qayıdır. Orada şəhidlərinin qanı axmış torpaqları qoxulamağa, o torpaqlarda azan səsini dinləməyə, öz ata-babasının məzarını ziyarət etməyə, o torpaqlara yeni həyat verməyə qayıdır. Bir də ona görə qayıdır ki, Kəlbəcər Qarabağdır, Qarabağ Azərbaycandır!*

**Mətanət MƏMMƏDOVA**

## “Dictionary of Economics” lüğətinin təqdimatı olub



“Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, “Naxçıvan” Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Hüseyn Bağırsoylunun “Dictionary of Economics” lüğətinin təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında olan ali təhsil ocaqlarında iqtisadiyyat və iqtisadiyyatyönümlü ixtisasların ingilis dilində tədrisi ilə bağlı müvafiq işlər görülür. Yeni nəşr olunan dərs vəsaiti “Dictionary of Economics” lüğəti də bu yöndə görülən işlərin davamıdır. Rəyçisi professor Bəhman Amani olan lüğətdə ingilis dilindən Azərbaycan dilinə və Azərbaycan dilindən ingilis dilinə tərcümə olunan iqtisadi termin və ifadələr öz əksini tapmışdır.

Sonra iqtisad üzrə elmlər doktoru Mehdi Bağırov, Xarici dillər fakültəsinin dekanı Yasin Babazadə, iqtisad üzrə fəlsəfə doktoru Ceyhun Mahmudov çıxış ediblər. Bildirilib ki, lüğətdə təqdim olunan 5000 söz və terminlər iqtisadiyyat sahəsindəki mütəxəssislər tərəfindən daha çox istifadə edilən 20000 söz və ifadə arasından seçilmişdir. Lüğət izahlı və öyrədici xüsusiyyəti ilə iqtisadiyyatla maraqlanan tələbələr, müəllimlər və digər insanlar üçün nəzərdə tutulub.

Sonda müəllif çıxış edərək göstərilən diqqətə görə minnətdarlığını bildirib.

**Seyfur HACIMURADOV**

## Risk qrupuna daxil olan şəxslərə qrip əleyhinə peyvəndin vurulması davam etdirilir



2020-2021-ci illərin payız-qış mövsümü ilə əlaqədar muxtar respublikada əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən hamilələr, xroniki xəstələr, tibb işçiləri, uşaq və yeniyetmə müəssisələrində çalışan şəxslərə qrip peyvəndinin vurulması məqsədilə xüsusi komissiya yaradılıb. Komissiyaya tibb müəssisələrinin baş həkimləri də daxil edilib, onlara müvafiq tapşırıq və tövsiyələr verilib.

Hazırda risk qrupuna aid şəxslərə qrip əleyhinə peyvənd vurulması davam etdirilir. İlkin mərhələdə tibb və Naxçıvan şəhər uşaq bağçalarının işçilərinə qrip əleyhinə peyvənd edilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru, risk qrupuna daxil olan şəxslərə qrip peyvəndinin vurulmasının icrası məqsədilə yaradılmış komissiyanın sədri Zeynəb Mustafayeva vaksinasiya prosesinin bütün dünyada həyata keçirildiyi, risk qruplarının mütləq peyvənd edilmələrinin vacibliyini bildirib.

Qrip peyvəndinin vurulması noyabr ayının sonunadək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 882